*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 98-104* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.98*

# Məmməd Səid Ordubadinin həyatı və mətbuat aləminə gəlişinə qədərki dövrə bir baxış

**Səbinə İbrahimli**
Filologiya üzrə fəlsəfə doktoru, doktorant
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: sabinaibrahimli001@gmail.com

**Annotasiya.** XIX əsrin ikinci yarısında Azərbaycan xalqına, Azərbaycan dilinə qarşı olan haqsızlıqlar, ədalətsizliklər və çar istilası Azərbaycan ərazisində ədəbi məclislərin yaranmasına səbəb olmuşdur. Bu poetik məclislərdə istər Azərbaycan, istərsə də müsəlman Şərqinin klassiklərinin əsərləri təhlil olunsa da, məclislərdə toplaşan şairlərin əsas məqsədi xalqda milli şuurun oyanması, milli özünüdərkə xidmət idi. Məmməd Səid Ordubadi də məhz bu poetik məclislərin ən layiqli varislərindən biri idi ki, Azərbaycan ədəbiyyatı xəzinəsinə töhfələr bəxş etmişdi.
Bilirik ki, XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan M.S.Ordubadi hələ 14-15 yaşlarında ədəbi yaradıcılığa başlamışdır. Gənclik illərində artıq əsl bir şair kimi yetişmiş Məmməd Səid Ordubadinin ilk şeirlər kitabı Tiflisdə C.Məmmədquluzadənin təsis etdiyi "Qeyrət" mətbəəsində çap olunub. Bundan sonra onun "Qəflət", "Vətən və Hürriyyət" adlı daha iki kitabı XX əsrin əvvəllərində çap olunmuşdur.
M.S.Ordubadinin ilkin yaradıcılığı yeniyetməliyindən başlamışdır və ədibin ağır həyatının inikası kimi dəyərləndirilə bilər. Çünki ilkin yaradıcılığı bir qədər qəmli notlar üzərində qurulmuşdur. Sonralar isə cürbəcür istiqamətlərə şaxələnən yaradıcılığı yalnız və yalnız xalqının taleyinin bir güzgüsü kimi göz önünə gəlir.
**Açar sözlər:** Məmməd Səid Ordubadi, Hacıağa Fəqir, "Əncümənüş-şüəra", Məhəmməd Tağı Sidqi, yaradıcılıq, məktəb

**Məqalə tarixçəsi:** göndərilib – 04.09.2024; qəbul edilib – 17.09.2024

# A glance at the life of Mammad Said Ordubadi and the period before his activity in the press world

**Sabina Ibrahimli**
Doctor of Philosophy in Philology, Doctoral Student
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: sabinaibrahimli001@gmail.com

**Abstract.** In the second half of the 19th century, the injustices and iniquities against the Azerbaijani people and the Azerbaijani language, and the tsarist invasion caused to the formation of literary gatherings in the Azerbaijani lands. In these poetic meetings, works of both Azerbaijani and Muslim Eastern classics were studied and the main purpose of the poets who participated in these gatherings was to awaken national consciousness in the people and to serve the national identity. Mammad Said Ordubadi was one of the most valuable successors of these poetic gatherings and made contributions to the treasury of Azerbaijani literature.
M.S.Ordubadi, one of the important representatives of Azerbaijani literature of the 20th century, started his literary creativity at the age of 14-15. First book of poems of Mammad Said Ordubadi, matured into a true poet in his youth, was published in "Geyrat" printing house founded by J. Mammadguluzade in Tbilisi. Later, at the beginning of the 20th century, two of his books, "Negligence" ("Gaflat") and "Homeland and Freedom" ("Vatan and Hurriyyat") were published.

M.S.Ordubadi's first creativity began in his youth and can be considered as a reflection of the author's difficult life. Because his initial creativity was based on somewhat sad notes. His creativity, which subsequently has developed in different directions, took into account only as a mirror of the fate of his people.
**Keywords:** Mammad Said Ordubadi, Hajiaga Fagir, "Anjumenush-shuera", Mahammad Tagi Sidgi, creativity, school

**Article history:** received – 04.09.2024; accepted − 17.09.2024

## Giriş / *Introduction*

XIX əsrin ikinci yarısında Azərbaycan xalqına, Azərbaycan dilinə qarşı olan haqsızlıqlar, ədalətsizliklər, çar istilası Azərbaycan ərazisində ədəbi məclislərin yaranmasına səbəb olmuşdur. Bu poetik məclislərdə istər Azərbaycan, istərsə də müsəlman Şərqinin klassiklərinin əsərləri təhlil olunsa da, orada toplaşan şairlərin əsas məqsədi xalqda milli şuurun oyanması, milli özünüdərk idi və onlar çar məmurlarını şübhəyə salmamaqdan ötrü, adətən keçmişə ekskursiya edir, fars şairləri Sədi Şiraziyə, Hafiz Şiraziyə, Ömər Xəyyama, eyni zamanda doğma şairlərimiz İmadəddin Nəsimiyə, Mövlanə Füzuliyə nəzirələr, təxmislər yazırdılar. Lakin bununla yanaşı, xalqı maarifləndirən, milli istiqbala, milli təfəkkürün oyanmasına səsləyən şeirlər yazır və imkan daxilində onları xalq arasında oxuyurdular. Bu cür məclislərdən biri də Ordubadda Hacıağa Fəqir tərəfindən yaradılmış "Əncümənüş-şüəra" ("Şairlər yığıncağı") idi.

Yuxarıda qeyd edildiyi kimi, ədəbi məclisin məqsədi və məramı xalqı maarifləndirmək, gözünü açmaq, soyunu-kökünü, yeddi arxa dönənini, dini, milli-mənəvi dəyərlərini, dostu ilə düşmənini tanıtmaq, adət-ənənələrinə sahib çıxmağı tövsiyə etmək idi. Məclis üzvləri çar üsul-idarəsinin məmurlarının Azərbaycanı müstəmləkə vəziyyətinə salmaqları ilə heç cürə barışa bilmirdilər və əsərlərini köləliyə, mütiliyə, eyni zamanda zülmə, zorakılığa qarşı mübarizə şəklində kökləyir, çinovniklərin anlamadığı sözlərlə, kəlmələrlə bir rəssam tablosu kimi xeyirlə şərin mübarizəsini, daha doğrusu, şər qüvvələrin azğınlığının, qudurğanlığının poetik mənzərəsini yaradırdılar.

Özü də bütün bunlar sovetlər dönəmində gizlədilsə də, əslində maarifçilik mühitində ildırım kimi çaxmışdı. Əslində bu məclislər xalqın milli təfəkkürünün oyanmasında böyük əhəmiyyət kəsb etmişdi. Çünki hələ Əli bəy Hüseynzadənin türkçülük və islamçılıq bayrağı altında birləşməsi çağırışının bünövrəsi bu poetik məclislərdən qaynaqlanmışdı və bu, elə bir ədəbi qaynaq idi ki, bunun qarşısını almaq mümkün deyildi. Bütün bunlardan əlavə, bu ədəbi məclislər çox sayda mütəfəkkirlər yetirdi ki, onlar da xalqın rifahının yüksəlməsindən ötrü ömürlərinin sonuna qədər qələmi yerə qoymadılar.

## Əsas hissə / *Main Part*

Məmməd Səid Ordubadi də məhz bu poetik məclislərin ən layiqli varislərindən biri idi ki, Azərbaycan ədəbiyyatı xəzinəsinə töhfələr bəxş etmişdi.

Azərbaycanın tarixi, əsasən erməni tarixçilər V.A.Abramyanın, A.Arakelyanın, qondarma "Arçax" haqqında kitab yazmış T.İ.Ter-Qriqoryanın, S.T.Eremyanın, P.T.Arutunyanın, A.N.Qaziyantsın, E.X.Calilyanın, M.Qoşun, Frafstos Buzandın, K.Aşrafyanın və s. uydurma tarixlərinə istinadən məhz erməni A.S.Sumbatyanın başçılığı ilə yazıldığından xeyli saxtalaşdırıldığı üçün eybəcər bir şəklə salınmışdı.

Bunun səbəbi isə ermənilərin rusların casusu olması, rusların da bunun qarşılığında onlara Zaqafqaziyada müsəlmanların üstündə ağalıq etmək hüququ verməsinə səbəb olmuşdu. Bunun mənzərəsini akademik Bəkir Nəbiyev çox gözəl şəkildə yaratmışdır: "Rusiya bolşevizmi, onun nüvəsinin tərkib hissələrindən biri

olan erməni daşnakları bəzi yerlilərin də "saqqızını oğurlayıb" işə cəlb etməklə Qafqazda, xüsusən Bakıda dəhşətli bir qarşıdurma yaratmış, inqilabi mübarizə pərdəsi altında əslində xalqımıza qarşı irimiqyaslı soyqırımları təşkil etmiş, 1920-ci ildə isə Azərbaycanın ilk qanunu suveren demokratik dövlətini zorla yıxmışdılar. Sinfi mübarizənin daha da qüvvətlənməsi barədə Stalindən aldıqları dəhşət saçan təlimi xüsusi canfəşanlıqla tətbiq edən bolşevik-daşnak guruhu "Şəxsiyyətə pərəstiş" illərində daha da azğınlaşmış, saysız-hesabsız soydaşlarımıza məxsus xanəgahları dağıdıb, ocaqları söndürmüş, millətin say-seçmə övladlarını güllələmiş, yaxud Rusiyanın "Buzli cəhənnəm" adlanan ölüm düşərgələrində çürüdüb axırlarına çıxmışdılar" [7, s.77].

M.S.Ordubadi 1872-ci ildə Ordubad mahalında anadan olmuşdur. Atası Hacıağa Fəqir məşhur şair, eyni zamanda dindar adam idi. XIX əsrin ikinci yarısında Hacıağa Fəqir bütün Qafqazda və Cənubi Azərbaycanda çox tanınmış şəxslərdən biri idi və bu əsasən onun Ordubadda yaratdığı "Əncümənüş-şüəra" ("Şairlər yığıncağı") adlı ədəbi məclislə bağlı idi ki, bu ədəbi məclisin şöhrəti Ordubadın hududlarından çox kənarlarda yayılmışdı. Ədəbiyyatşünas Firidun bəy Köçərli Hacıağa Fəqirin qabiliyyətini, bacarığını, istedadını yüksək qiymətləndirərək yazırdı:

"Azərbaycan şüərasının məşhurlarından birisi də mərhum Hacıağa ibn Məhəmməd Fəqir təxəllüsüdür. Fəqirin şərhi-halı və surəti əhvalı Naxçıvan, Ordubad tərəfdə və İranın bəzi şəhərlərində cümlə üdəbaya məlumdur. Hacıağa Fəqir tizfəhm, təsih və hazırcavab imiş. Əksəri ömrünün tədrisi tədibi-əbnayi-vətən ilə keçibdir" [3, s.195].

Hacıağa Fəqir elə bir dövrdə yaşayırdı ki, bu dövrdə çar üsul-idarəsinin göstərişi ilə İrandan Qərbi Azərbaycana, Qarabağa, Naxçıvana və Ordubada çox sayda erməni ailələri köçürmüşdülər. Guya yerli müsəlmanlardan bunlara xətər gələ bilər, bəhanəsi ilə Naxçıvanın və Ordubadın hər yerində əlisilahlı çar çinovnikləri və kazaklar müsəlmanlara qarşı qoluzorluluq eləyir, bəzən heç bir səbəb olmadan tutub divana aparır, bununla da bu adamlar üçün hər cür şərait yaradırdılar. Hələ XV əsrdən etibarən Qara Yusifin razılığı ilə Qərbi Azərbaycana gəlib Üçmüəzzin deyilən bölgədə öz dini mərkəzlərini yaratmış ermənilər Azərbaycan ərazilərinə köçürüləndən sonra da əvvəlki kimi xırda ticarətlə məşğul oldular, sonra isə zaman-zaman varlanıb ipək ticarətini əllərinə aldılar və sənaye müəssisələri inşa etdirib, əsasən də, yoxsul müsəlmanlardan fəhlə qüvvəsi kimi istifadə edərək, külli miqdarda var-dövlət sahibi oldular. Bu cür sənaye müəssisələrindən birini işlədən də Karapet Babayev idi. Onun ipək zavodu var idi ki, o, yuxarıda qeyd olunduğu kimi, müsəlmanlardan fəhlə qüvvəsi kimi istifadə edib onlara cüzi əməkhaqqı ödəməklə milyonlar sahibi olmuşdu.

Hacıağa Fəqirin yaşadığı dövr elə bir dövr idi ki, çar Rusiyası şovinistləri Azərbaycan xalqını cılızlaşdırıb "vəhşi", "geridə qalmış", "kütbeyin", "pinti" bir xalq kimi təqdim edərək zorla "tatar" möhürü vurmaq istəyirdi. Hərçənd ki, çar Rusiyasına quyruq bulayanlar bununla razılaşırdılar, lakin "Şərqi-rus" qəzetinin təsisçisi, Avropada ali təhsil görmüş qabaqcıl ziyalılarımızdan olan Məhəmməd Ağa Şahtaxtinski buna qarşı çıxırdı. Məşhur publisist 1891-ci ildə "Kəşkül" və "Kaspi" qəzetlərində buna etiraz əlaməti olaraq yazırdı: "Qacarların məğlubiyyətindən sonra Rusiyanın işğalı altında qalan "Aderbedjan" mahalı"nın indi "Zaqafqaziya müsəlmanları" adlanan əhalisi etnik mənşə və dil etibarilə nə tatar, nə də fars amili ilə bağlıdırlar, onlar türkdürlər, Azərbaycan türkləri. Gündəlik həyatımızda da xalqın adını və dilinin adını iki sözlə ifadə etmək rahat deyil. Məsələn azərbaycanlı türk və yaxud aderbedcanlı türk dili. Ona görə də Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə tatar dili əvəzinə, Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı" [8].

Akademik İsa Həbibbəyli Məhəmmədağa Şahtaxtlıya haqq qazandıraraq "Ədəbi tarixi yaddaş və müasirlik" kitabında bu haqda belə yazır: Əgər "Kəşkül"də yalnız Azərbaycan milləti anlayışının mahiyyəti aydınlaşdırılırsa, Məhəmmədağa Şahtaxtlının məqaləsində Azərbaycan ölkəsi, azərbaycanlılar, Azərbaycan dili haqqında konkret elmi mülahizələr irəli sürülmüşdür" [1, s.302].

Hacıağa Fəqir illərlə "Əncümənüş-şüəra"ya rəhbərlik edib, eyni zamanda ədəbi yaradıcılıqla məşğul olur və "Gülşəni-irfan" adlı Divan

və bir sıra əsərlər meydana gətirir. Lakin ədəbi yaradıcılığının ən qaynar çağında gözləri tutulur və əsərlərini yaxın arxadaşı Məhəmməd Tağı Sidqiyə diktə edir, o da öz növbəsində əsərləri kağız üstünə köçürür. Onu da demək lazımdır ki, Məhəmməd Tağı Sidqi Hacıağa Fəqirin əlyazmalarını yığıb toplayırdı və bu işdə ona "Əncümənü-şüəra"nın üzvləri Bikəs və Hüseyn Nadim Naxçıvani də köməklik göstərirdilər. Kor olandan sonra bir neçə il ömür sürən Hacıağa Fəqir, nəhayət, qırx doqquz yaşında ikən dünyasını dəyişir.

Atası rəhmətə gedəndə Məmməd Səidin cəmisi 13 yaşı var idi və artıq ailənin ağırlığı onun üstünə düşürdü. Məmməd Səid on dörd yaşında ikən daşnak xislətli, acgöz, əslində müsəlmanlara dərin nifrət bəsləyən Karapetin zavodunda işləməyə məcbur olur. Yaşından böyük görünən pəhləvan cüssəli Məmməd Səid işin çox ağır olmasına baxmayaraq, lazımınca öhdəsindən gəlir, lakin xəsis və riyakar Karapet ona cüzi pul ödəyir. Ədib "Həyatım və mühitim" memuarında bunu poetik lövhələrlə bu şəkildə təsvir edir:

*Qorxuruq küləkdən, qorxuruq yeldən,*
*Ruzumuz asılmış incə bir teldən.*
*İşə çağırırlar ulduz batmamış,*
*İşdən buraxmazlar şəhər yatmamış.* [5, s.26]

Başqa yol olmadığından səhər alaqaranlıqdan axşam şər qarışana kimi ağır fiziki işdə çalışan Məmməd Səid ailəsinə kömək etmək üçün bütün çətinliklərə öz dəmir iradəsinə rəğmən dözürdü. İşini çox yaxşı görməsinə baxmayaraq, bir müsəlman yeniyetmənin çox ağır yükləri daşıdığını görərkən paxıllıqdan partlayan Karapet Məmməd Səidi işdən kənarlaşdırır. Məmməd Səid məcbur olub fabrik sahibi Rzayevin fabrikində çalışmağa başlayır. Lakin Rzayev də öz növbəsində heç Karapetdən geri qalmırdı, yəni çox işlədib az para ödəyirdi. Məmməd Səid bu zavodda 1904-cü ilin payızına qədər çalışmış, şeiri "Şərqi-rus" qəzetində nəşr edilən kimi sahibkar tərəfindən zavoddan kənarlaşdırılmışdı.

*Gözüm dur xabi-qəflətdən çıxıb gün aşkar oldu.*
*Behəmdüllah şəbi-yelda gedib nisfun-nəhar oldu.*
*Dolubdur səfheye aləm şüayi "Şərqi-rus" ilə,*
*Qaranlıq könlümün zülmət sərasir zərnigar oldu.* [5, s.26]

"Behəmdüllah şəbi-yelda gedib nisfun-nəhar oldu", "şükürlər olsun Allaha, ən uzun gecə gedib işıqlı səhər" – anlamına gəlir. Çünki "behəmdüllah" "Allaha şükür," "şəbi-yelda" "ən uzun gecə", "nisfun-nəhar" isə "işıqlı səhər" deməkdir. Bu da öz növbəsində ədibin mükəmməl təhsil gördüyünü, eyni zamanda ərəb dilinə müəzzəm şəkildə yiyələndini bəyan edir.

Məmməd Səid Ordubadi ana dilində yazdığı şeirləri "Səid Ordubadi", yəni "Xoşbəxt Ordubadlı" təxəllüsü ilə yazırdı. O, ədəbi yaradıcılığa 14 yaşından başlayıb. Müəllimləri onda şeirə, yaradıcılığa olan meyili və həvəsi daha da gücləndiriblər. Onun xatirələrində daha sonra oxuyuruq: "Şeirlərim "Şərqi-rus" qəzetində çıxdığı vaxt fabrik sahibi Rzayev qəzeti fabrikdə mənə göstərib dedi: "Çox şadam ki, Ordubaddan da qəzetə yazan vardır". Fəqət fabrik sahibinin bu razılığına baxmayaraq, mən axşam işdən çıxdıqda ustabaşı Nağı mənə yaxınlaşıb: "Sabah get haqq-hesabını kontordan al!"– deyərək mənim işdən qovulduğumu xəbər verdi". Yəni Ordubadinin "Yaşa insanca, insanlar tək azad ol əsarətdən" ideyası rəhbərlik tərəfindən qəbul edilməyib. Buna baxmayaraq, Səid "Şərqi-rus" qəzetində şeirlərinin dərc olunmasını özü üçün müvəffəqiyyət hesab edir və şeir yazmağa daha da həvəsləndiyini yazır" [4].

Şeir yazdığına görə işdən kənarlaşdırılan Məmməd Səid həyətyanı torpaq sahələrini yaxşıca əkib-becərdiyindən müəyyən qədər məhsul götürüb Ordubad bazarlarında satır və bu pulla da həm ailəsinə, anasına, bacısına kömək eləyir, həm də təhsilini davam etdirir.

Məmməd Səid ailəsi üçün ruzi qazanmaqla bərabər, MİrzəBaxışın yeni-üsullu məktəbində oxuyurdu. Mirzə Baxış ondan təhsil haqqı almırdı və onun həm ilahiyyat, məntiq, fiqh elmlərinə, həm də dünyəvi elmlərə yaxşı yiyələndiyini görüb, ona məktəbdəki azsavadlılara dərs keçməyi tapşırır. Mirzə Baxışın bu məktəbdə hər cümə axşamı şeirləşmələri Məmməd Səidi şeir yazmağa həvəsləndirir. O, özünün "Həyatım və mühitim" memuarında yazır: "Mən şeir yazmaq və yazıçı olmağa heç həvəslənmirdim. Atamın yazdığı şeirlərin pal-

çıq içinə atılması heç də yadımdan çıxmırdı. Bir çox zamanlar anam da buna mane olurdu. Çünki atamın şeir sənətindən nə kimi fəlakətlər çəkdiyi onun gözünün qabağında idi. Lakin məktəb və şeirləşmə işi özüm hiss etmədiyim bir surətdə məni şeir yazmağa öyrətdi" [5, s.13].

Təxminən iyirmi üç yaşında ikən Məmməd Səid təhsilini "Üsuli-cədid" (yeni üsullu) məktəbində davam etdirir. Xoşbəxtlikdən Məhəmməd Tağı Sidqi həmin məktəbə müəllim təyin olunur. Bu isə Məmməd Səid üçün iki tərəfdən çox faydalı idi, çünki bir tərəfdən Məhəmməd Tağı Sidqi onun atasının ən yaxın dostu, evlərinin adamı idi, bir tərəfdən də heyrətamiz dərəcədə savadlı, eyni zamanda maarifpərvər bir ziyalı idi. Onu da qeyd edək ki, M.T.Sidqi (1854-1903) bir maarifpərvər kimi azərbaycanlı gənclərin elm və təhsil almasında müstəsna rol oynamışdır.

O, güclü mədrəsə təhsili almış, 80 ilahiyyat elminə mükəmməl şəkildə yiyələnmiş, eyni zamanda dünyəvi elmlərdən "hesab", "həndəsə", "kimya", "tarix", "ədəbiyyat", "coğrafiya" və s. elmləri də kamil şəkildə mənimsəmiş, eyni zamanda klassik Şərq poeziyasını və fəlsəfəsini də dərindən öyrənmişdi. Evinin yaxınlığında çayxana açmışdı və Ordubadda möhtərəm bir şəxs kimi tanındığından bu çayxana həm də ədəbiyyat həvəskarlarının klubu sayılırdı. Burada ədəbiyyat, şeir-sənət həvəskarları toplaşır, həm Azərbaycan, həm də müsəlman Şərqinin klassiklərindən qəsidələr, qəzəllər, şeirlər oxuyur, eyni zamanda öz şeirlərindən nümumələr də söyləyirdilər.

Məhəmməd Tağı Sidqi əslində ilk dəfə olaraq, yəni Bakıda xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev 1901-ci ildə qızların oxuması üçün məktəb açmamışdan beş il əvvəl, yəni 1896-cı ildə "Qız məktəbi" açmışdı. Tağıyev isə Sidqinin bu müqəddəs işini çox bəyənərək məktəbin açılmasından ötrü maddi yardım göstərmişdi: "M.T.Sidqi qızların təhsilinin, tərbiyəsinin zəruriliyindən danışmaqla kifayətlənməmiş, öz ideyalarını əməli olaraq həyata da keçirmişdir. O, 1896-cı ildə Naxçıvan qəzasında ilk dəfə olaraq müsəlman qız məktəbini açmağa nail olmuşdur. XIX əsrin sonunda Naxçıvan kimi ucqar bir bölgədə, dindar bir yerdə qızlar üçün məktəb açmaq böyük hünər idi. Şəhərin din xadimlərinin, molla və müctəhidlərin hücumlarına baxmayaraq, Sidqi öz mütərəqqi fikirlərindən dönməmiş və qız məktəbinin açılmasına nail olmuşdur. Bu məktəbin açılmasında Naxçıvanın qabaqcıl maarifpərvərləri yaxından kömək etmişlər. Sidqinin bu mütərəqqi fəaliyyəti Bakı maarifpərvər milyonçusu H.Z.Tağıyev tərəfindən təqdir edilmiş və o məktəbin inkişafı və fəaliyyəti üçün maddi yardımda bulunmuşdur" [9].

*Təsadüfi deyil ki,* Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəylinin "Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-maarifçi fəaliyyəti" [2] kitabı nəşr olunub.

Dahi şairimiz Hüseyn Cavidin "Qız məktəbində" şeirini yəqin ki, çox insan əzbər bilir, çünki bu şeir Gülbahar adlı bir qızcığazın simasında onun təhsil aldığı qız məktəbinin nə qədər tərbiyəvi əhəmiyyətə malik olduğunun, eyni zamanda yeniyetmə qızların əxlaqında çox müsbət rol oynadığının poetik bir mənzərəsidir. Burada yalnız gözəllik, sevgi, məhəbbət, ülviyyətlə çırpınan Hüseyn Cavid dühasının pak, təmiz, günahsız ruhundan axan büllur misralardır ki, buna yalnız heyrətlənmək olar. Məsələ burasındadır ki, qüdrətli sənətkar bu olduqca nəfis şeiri məhz M.T.Sidqinin qız məktəbinə həsr etmişdir:

- Quzum, yavrum! Adın nədir?
- Gülbahar.
- Pəki, sənin anan, baban varmı?
- Var.
- Nasıl, zənginmidir baban?
- Əvət, zəngin, bəyzadə...
- Öylə isə, geydiyin geyim neçin böylə sadə?
- Yoxmu sənin incilərin, altun bilərziklərin?
- Söylə, yavrum! Heç sıxılma...
- Var əfəndim, var… lakin
- Müəlliməm hər gün söylər, onların yox qiyməti,
- Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
- Çox doğru söz… Bu dünyada sənin ən çox sevdiyin
- Kimdir, quzum, söylərmisən?
- Ən çox sevdiyim ilkin
- O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
- Sonra kimlər?
- Sonra onun göndərdiyi elçilər.
- Başqa sevdiklərin nasıl, yoxmu?
- Var...

- Kimdir onlar?

- Anam, babam, müəlliməm, bir də bütün insanlar… [9]

M.T.Sidqi Ordubadda "Əxtər" (1892, maarifçi ziyalı Hüseyn Sultan Kəngərli ilə birgə), Naxçıvanda isə "Tərbiyə" ("Məktəbi-Tərbiyə", 1894) məktəbi təsis etmiş, xalq müəllimi kimi şöhrət qazanmış, ədəbi-mədəni tədbirlərin və teatr tamaşalarının əsas təşkilatçılarından olmuşdur. Elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin ("Nümuneyi-əxlaq", "Töhfeyi-bənat, yainki Qızlara hədiyyə", "Müxtəsər coğrafiya risaləsi" və s.) müəllifidir (əlyazmaları Azərbaycan Mlli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanır – S.İ.).

M.T.Sidqi M.S.Ordubadinin ustadlarından biridir. Lakin ədibin əsl ustadı həyat özüdür. Belə ki, ədib yaradıcılığa başlayan andan gördüyü, şahidi olduğu, eşitdiyi hadisələrin məcmusunu yaratmışdır.

Gənclik illərində artıq əsl bir şair kimi yetişmiş Məmməd Səid Ordubadinin ilk şeirlər kitabı Tiflisdə C.Məmmədquluzadənin təsis etdiyi "Qeyrət" mətbəəsində çap olundu. Bundan sonra onun "Qəflət", "Vətən və Hüriyyət" adlı daha iki kitabı "XX əsrin əvvəllərində çap olunmuşdu. Yaradıcılığına şeir yazmaqla başlayan Məmməd Səid ilk şeirini Məhəmməd Şaxtaxtlının naşiri olduğu "Şərqi-rus" qəzetinə göndərmiş və şeir həmin qəzetdə dərc edilmişdir:

"Ədibin "Şərqi-rus" qəzetinə" adlı mətbu şeiri, həmin qəzetin 1903-cü il 13 iyul, 31-ci sayında "Kərbəlayi Məhəmməd Hacıağazadə təxəllüsü Səid Ordubadi imzası ilə dərc olunmudur" [6, s.228].

## Nəticə / *Conclusion*

M.S.Ordubadinin ilkin yaradıcılığı yeniyetməliyindən başlamışdır və ədibin ağır həyatının inikası kimi dəyərləndirilə bilər. Çünki ilkin yaradıcılığı bir qədər qəmli notlar üzərində qurulmuşdur. Sonralar isə cürbəcür istiqamətlərə şaxələnən yaradıcılığı yalnız və yalnız xalqının taleyinin bir güzgüsü kimi göz önünə gəlir. Ədib qələmini hansı istiqamətə yönəldirsə, xalqın sıxıntıları, ağrı-acıları, eyni zamanda fədakarlığı, mübarizə əhval-ruhiyyəsi görünür. Beləliklə, ədibə həqiqi mənada xalqın yazıçısı demək olar. Bu isə hər sənətkara nəsib olan bir şey deyil.

## Ədəbiyyat / *References*


1. Həbibbəyli, İsa. Ədəbi tarixi yaddaş və müasirlik. – Bakı: Nurlan, 2007. – 616 s.
2. Həbibbəyli, İsa. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-maarifçi fəaliyyəti. – Bakı: Elm və təhsil, 2022.
3. Köçərli, Firidun. Azərbaycan ədəbiyyatı, iki cilddə, II cild. – Bakı: Elm, 1981.
4. Qaraoğlu, Fazil. Bakı xəbər. 2018, 3-5 fevral. (https://www. anl. az/ down/ meqale/baki_xeber/ 2018/fevral/575440.htm7.
5. Məmməd Səid Ordubadi. "Həyatım və mühitim" (1972-ci ildən 1920-ci ilə qədər). – Bakı: Nurlan, 2000.
6. "Molla Nəsrəddin Ensiklopediyası". AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu (tərtib edəni: Vüqar Əhməd). – Bakı: Elm, 2020. – 466 s.
7. Nəbiyev, Bəkir. Xəzan vurmasın. – Bakı, 2006. – 452 s.
8. Şahtaxtlı, Məhəmmədağa. "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?" "Kaspi", 1891, № 93.
9. https://muhaz.org/derslik-ii-cild-azerbaycan-respublikas-tehsil-nazirliyinin 14.html?page=15

## Взгляд на жизнь Мамеда Саида Ордубади и период до его прихода в мир прессы

**Сабина Ибрагимли**
Доктор философии по филологии, докторант
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: sabinaibrahimli001@gmail.com

**Резюме.** Во второй половине XIX века несправедливости и притеснения по отношению к азербайджанскому народу, азербайджанскому языку, а также царское самодержавие привели к созданию литературных меджлисов на территории Азербайджана. Хотя на этих поэтических собраниях анализировались произведения как азербайджанских, так и классиков мусульманского Востока, главной целью этих собраний поэтов было пробуждение национального самосознания в народе, служение национальному самосознанию. Мамед Саид Ордубади был одним из достойнейших наследников этих поэтических собраний, внесших вклад в сокровищницу азербайджанской литературы.

Известно, что выдающийся представитель азербайджанской литературы XX века М.С. Ордубади начал свое литературное творчество еще в 14-15 лет. Первая книга стихов Мамед Саида Ордубади, уже в юности созревшего как настоящий поэт, была издана в Тбилиси типографией «Гейрат», основанной Дж.Мамедгулузаде. После этого, в начале XX века вышли еще две его книги под названием «Гафлат» и «Ватан ве Хюррият».

Раннее творчество М.С. Ордубади началось с юности и может быть оценено как отражение тяжелой жизни писателя. Потому что его первые произведения были написаны в довольно грустных нотах.

Позже его творчество, разветвлявшееся в различных направлениях, предстает как зеркало судьбы его народа.

**Ключевые слова:** Мамед Саид Ордубади, Гаджиага Фагир, «Анджуман уш-шуара», Мухаммед Таги Сидги, творчество, школа